DOI: https://doi.org/10.36719/2706-6185/48/34-42

**Elmira Axundova**
Bakı, Azərbaycan
sənətşünaslıq üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0007-8661-567X
elmira_akhundova@yahoo.com.tr

# Əl-Fərabi şərhlərində "elmlər təlimi" və "xoş ahənglər" müvafiqəti

### Xülasə

Əl-Fərabi və Səyf əd-Daulə haqqında bizə yetişən bilgilər, orta əsr müsəlman ənənələri ilə yaşadılan alim və zəkaların bədii surətləri, mövcud təfsir və izahlarla yaranmış tarixi hekayələrdə yer almaqdadır.

İslam mədəniyyətinin parlaq çağında – elm məbədgahının inşası dövründə ilk musiqi nəzəriyyəsi yaradıcılarından olan Əl-Fərabinin antik irs mərhələsi ilə inkişaf etmiş kamil elmi baxışları, müsəlman ənənələri ilə var olan musiqi sistemi nəzəriyyəsi orta əsrlərin sonuna qədər daha da təkmilləşib, İslam alimlərinin yeni ixtiralarına yol açmışdır.

Onun ərəb xilafəti dövründə gerçəkləşdirdiyi musiqi bilikləri – makamlar (lad), iqaa (ritm), masafa (interval) quruluşları, musiqi nəzəriyyəsi, səslərin bədii xüsusiyyətləri və uyğunluqları ilə bağlı təhlil, təcrübə və mülahizələri musiqi incəsənətinin mükəmməl bilgi nümunələridir.

Əl-Fərabi tədqiqatlarında müxtəlif sahələri işıqlandıran biliklərin qarşılıqlı əlaqəsi çox zaman tədqiq olunan bir mövzunun digər mövzu daxilinə yerləşməsi və inkişaf etməsi ilə bağlı idi. Onun bu kimi təcrübələri sadəcə musiqi sahəsində deyil, eləcə də məntiq və dilçilik elmləri üzrə apardığı tədqiqatlarda da görünməkdə idi.

***Açar sözlər:*** *Əl-Fərabi, elmlər təlimi, islam mədəniyyəti, musiqi bilikləri*

**Elmira Akhundova**
Baku, Azerbaijan
PhD in Art Studies
https://orcid.org/0009-0007-8661-567X
elmira_akhundova@yahoo.com.tr

# Conformity of "Training of Sciences" and "Pleasant Harmonies" In Al-Farabi's Comments

### Abstract

The information on Al-Farabi and Sayf ad-Dawla and artistic images of scholars and geniuses who followed medieval Muslim traditions, took part in historical stories created with existing comments and explanations.

The scientific views developed with ancient heritage stage and theory of the musical system with Muslim traditions of Al-Farabi, one of the founders of first music theory in the brilliant period of Islamic culture – during the creation of the Temple of Science was further improved until the end of the Middle Ages and caused to new inventions by the scholars of Islam.

His musical knowledge realized during the period of Arab caliphate – analyses, experiences and considerations related to makams (lad), igaa (rhythm), masafa (interval) structures, music theory, artistic features of sounds and conformities are excellent examples of the art of music.

Interaction of knowledge that illuminates various fields in Al-Farabi's researches was often associated with the presence and development of one topic under study within another topic. His experiences were related not only to researches on the field of music, but also on the logic and linguistics.

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

***Keywords:*** *Al-Farabi, education of sciences, islamic culture, musical knowledge*

## Giriş

Mənşəcə Orta Asiyalı olan Əbu Nəsr Məhəmməd ibn Tarxan ibn Uzlaq əl-Fərabi ət-Türki 870-ci ildə Sırdəryanın Fərab əyalətində dünyaya gəlmişdir. Ustadın etnik kimliyi mübahisəlidir. Bəzi ədəbiyyatlarda Əbu Nəsrin fars kökü ilə bağlı məlumatlara təsadüf edilsə də, əldə edilən qaynaqlar onun türk olduğu¬na əsas verir. Fərabinin türksəsilli olduğunu irəli sürən İbn Xəllikan (1211–1282) 1271-ci ildə tamamladığı "Əyanların vəfatı və dövrün oğulları" adlı əsərində böyük alimin Türkistanda, bu gün Fərab kimi tanınan, keçmiş Otrar yaxınlığında kiçik qəsəbədə – Vasicdə, bir türk ailəsində dünyaya göz açdığını yazır. Soyadındakı Tarxan əsilliliyi onun Xorasan hakimiyyəti imtiyazını, ət-Türki isə "türk" mənsubiyyətini təsdiqləyən dəlildir.

**Tədqiqat**

İbn Xəllikanın Fərabiyə "əl-türk" deməsi, dövrün bəzi yunan yazarları tərəfindən mübahisələrə səbəb olmuş, zira ustadın əlyazmaları arasında bu imzanın görülməməsi qənaətində idilər. Halbuki, İbn Xəllikanın sənət izini təqib edən Əbu əl-Fida öz ustadının "əl-türki" ibarəsini "əslində, o bir türk idi" (vua-kəna rəculan türkiyyən) demək istədiyini yazmışdır (Agah Sırrı Levend, 2015, s. 17).

Əl-Fərabi bütün əsərlərini ərəb dilində qələmə alıb, Aristotelin bir çox traktatlarını bu dilə çevirmiş, onların daha aydın anlaşılması xüsusunda əlahiddə şərhlər verib, antik fəlsəfənin öyrənilməsi, İslam dilinin bir fəlsəfə dili olaraq tanınması üçün böyük əmək sərf etmişdir.

Qərb fəlsəfəsində Alfarabus kimi tanınan Əbu Nəsr əl-Fərabi ilk təhsilini doğulduğu məkanda tamamlayıb, davamı üçün dövrün mərkəzi sayılan Bağdada gəlmiş, öncə Yunus ibn Əbu Bəşir Müttinin, daha sonra Məkkədə Yuhanna ibn Haylanın təlim ocağında ərəb və məntiqə giriş fənlərini öyrənməyə başlamışdır. Əbu əl-Həsənin (X əsr) hekayələrindən məlum olur ki: "Əl-Fərabi Şamda olarkən, bölgə zənginlərinin bağlarında qarovul çəkir, qaranlıq çökdükdə bağça çırağının zəif şöləsi ilə oxuduğu qalın kitabların mənasını anlamağa səy edirdi. Çox keçmədi ki, onun elmlərə sahibolma məziyyətləri ortaya çıxdı, yazıları şöhrət qazandı, paylaşdığı bilgilərini öyrənmək istəyənlərin sayı çoxaldı və o öz dövrünün aliminə çevrildi. Səyf əd-Daulə Əbu əl-Həsən Əli ibn Abdulla ibn Həmdan ət-Təqlabi ona ehtiram göstərib, istedadını dəyərləndirdi, bununla da Fərabinin taleyi dəyişdi" (Bədəvi, 1983, s. 156).

Əl-Fərabi və Səyf əd-Daulə haqqında bizə yetişən bilgilər, orta əsr müsəlman ənənələri ilə yaşadılan alim və zəkaların bədii surətləri mövcud təfsir və izahlarla yaranmış tarixi hekayələrdə yer almaqdadır. Bunlardan ən maraqlısı İbn Xəllikanın əmir məclislərindən birində Əbu Nəsrin ifaçılıq məharətini və səlist, rəvan nitqini nümayiş etdirən hekayəsidir:

"Bütün müğənnilərin saraya gəlməsini əmr edən Səyf əd-Daulə, müxtəlif musiqi alətləri ilə onun hüzuruna çıxan sənət xadimlərinin ifalarını izləyirmiş. Onlardan hər biri öz alətində bacarığını sərgiləyərkən, Əl-Fərabi ifalarda qüsur tapıb – "Ğalat!" (xəta) – deyə kənardan müdaxilə edirmiş. Bu zaman Səyf əd-Daulə ondan soruşur: "Ey, sən özün bu sənətdə hər hansı bir elmi hünərə qabilsənmi?" Əl-Fərabi əlini köksünə qoyub, Əmir önündə təzim edir və söyləyir: "Bəli, hökmdarım". Səyf əd-Daulə hüzurunda türk qiyafəti və öz məğrur ədası ilə dayanan bu musiqişi məclisdəkilərin qınaq hədəfi olsa da, hər kəs narahat baxışlarla bu işin sonunu gözləyir. Çox keçmir ki, Əl-Fərabinin axıcı səs və müşayiətinə, dəqiq tələffüzü ilə səslənən bilgilərinə qapılan məclis əhli musiqi elmindən xəbərsiz olduqları həqiqətləri eşidib, bu münəvvər gənci heyrətlə dinləyirdilər. Hekayələrindən sonra hər kəsin xəyalə daldığını görən Fərabi, yanıqlı səsi ilə qatqı qəlbləri oxşayan qanununu qutusuna yerləşdirib, kimsənin xəbəri olmadan oranı tərk edir" (Bədəvi, 1983, s. 159).

İslam mədəniyyətinin parlaq çağında – elm məbədgahının inşası dövründə ilk musiqi nəzəriyyəsi yaradıcılarından olan Əl-Fərabinin antik irs mərhələsi ilə inkişaf etmiş kamil elmi baxışları, müsəlman ənənələri ilə var olan musiqi sistemi nəzəriyyəsi orta əsrlərin sonuna qədər daha da təkmilləşib, İslam alimlərinin yeni ixtiralarına yol açmışdır.

Onun Ərəb xilafəti dövründə gerçəkləşdirdiyi musiqi bilikləri – makamlar (lad), iqaa (ritm), masafa (interval) quruluşları, musiqi nəzəriyyəsi, səslərin bədii xassələri və uyğunluqları ilə bağlı təhlil, təcrübə və mülahizələri musiqi incəsənətinin mükəmməl bilgi nümunələridir.

Nəzəri biliklər üzrə söz sahibi olan Fərabi məntiq, hüquq, əxlaq, siyasət, kimya, riyaziyyat, musiqi və kainat elmlərini öyrənmiş və bu fənlərin hər birinə aid müstəqil, kamil əsərlər yaratmışdır. Fəlsəfəni elmlərin təməli kimi qəbul edən Əl-Fərabi, antik dövrdən orta əsrlərə qədər uzanan hakim bir düşüncə təsiri ilə yaranmış bütün elm sahələrinin eyni kökdən qaynaqlandığına, biliklər arasında müəyyən məntiqi əlaqənin olduğuna inanırdı.

Musiqini elmlər sırasında riyaziyyatın bir qolu kimi görən Əl-Fərabinin bu sahə ilə bağlı qələmə aldığı "Əl-mudhal fi’l-musiqa", "Kitab əl-ustukisat ilm əl-musiqa", "Kitab fi ihsa əl-iqaa fi`l musiqa" və "Sanaat əl-musiqa" risalələri bu gün sahib olduğumuz çox dəyərli sənət əsərləridir. Qərb musiqi tədqiqatçıları və filosoflarına görə, Əl-Fərabinin bu əsərləri orta əsrlərin ən mükəmməl bilgi qaynaqlarıdır. Bu kitabların çoxsaylı şərhlərində musiqi alətlərini ifa etmə və musiqi yaratma təcrübələrində öz mükəmməl bacarıq və məharətləri ilə yola çıxan müəllif öncə sələflərinin əsərlərini incələmiş, daha sonra düşüncə və tövsiyələrini paylaşmışdır.

Əl-Fərabi tədqiqatlarının məna və açılışları onun məlumat qaynaqları olan istilahları (terminləri) ilə dərk edilir. Bunların mərkəzində öncə “marifa” – dərk etmə, və “ilm” – bilik, anlayışları mühüm yer tutur.

İslam dilçiliyində bu məfhumlar xüsusi şərh növləri olan “Dini Kitablar” (Quran və hədislərin – “əhdi ətiq”, “əhdi cıdid”) və ilahiyyat (dini nəzəriyyələr) ədəbiyyatı ilə başlayıb, ali ədəb-ətik normaları ilə uzlaşan, nəsr və poeziya ilə bitən bir dövrü işıqlandırır. Orta əsr ədəbiyyatını zənginləşdirən bu anlayışlar onları tədqiq edənlərin qənaəti ilə istər tək, istərsə də bir-birinə nisbət olub, səsləndiyində ya eyni, ya da tamamən əks mənaları ifadə edə bilərdi (Daykeeva, 2002, s. 70).

“Qurani-Kərim” (Kəlam-i kadim – “Biz onu mübarək bir gecədə nazil etdik” Duxan sur. III a.) surələrində “ilm və marifa” – ilahi qanunlarla aydınlanma, təməl, ali dini biliklər – əmr, yasaq, müjdə və xəbərdarlıq bəyanları, əxlaq və hüquq müddəalarıdır. İslam nəzəriyyəsi ilə “ilm” – irqi bilik, etiqad (iman), “marifa” – “adab” mənasına yaxın olub, “ali və yüksək dərəcə” anlamı daşıyır. Əl-Fərabinin məntiq (düşüncə və nəticə) nəzəriyyəsi ilə birincinin mənası – “bilik” (ilim), bundan törəyən “bilgin” (alim) dini biliklərin daxil olduğu hər təlim sahəsinə aid edilən anlayışlardır. “Marifa” (elm, bilik, hünər) isə fəlsəfi qaynaqların, qavranılan bilik məcmusunun açıqlanmasına dəlalət edir (Daykeeva, 2002, s. 72).

Orta əsrlərdə elmi anlayışları ətraflı təhlil və şərh etmə ənənəsi Əl-Fərabinin Aristotel məntiqinin ifadəsi olan “Orqanon” tədqiqatları ilə başlamışdır. Ustad altıcildlik “Orqanon”un bütün bölümlərini öz təfsirləri ilə açıqlamış və ona daha iki bölüm əlavə etməklə, səkkizcildlik bir məcmuə toplusuna çevirmişdir. Zəngin bilikləri özündə toplayan bu möhtəşəm risalədə Fərabi Şərq fəlsəfəsinin məntiqi əsasları ilə yanaşı, fəlsəfənin bir qolu olan metafizika – varlıq, kainat, zaman, səbəb, fəza, ruh qavramı və musiqi haqqında dəyərli düşüncələrini paylaşmışdır.

Əl-Fərabi “məntiq” şərhlərini bölümləndirərkən, Aristotelə istinad etmiş, mövzu ardıcıllığını qoruyaraq, hər mövzunu bir kitabda yerləşdirmişdir. Birinci kitab – “Makulat” (Dərəcələr), ikinci – “Əl-İbarə” (İfadələr), üçüncü – “Əl-Kiyas” (birinci Analitiklər), dördüncü – “Əl-Burhan” (məntiqi dəlillər), beşinci – “Əl-Cədəl” (elmi mübahisə sənəti), altıncı – “Əl-Hikmət əl-mumevvi`ha” (sofestik – yanıltan dəlillər), yeddinci – “Hitabat” (Bəlağət) və səkkizinci – “Nazm” (Şeiriyyət) adlanır.

Aristotelə görə məntiq, bilgi əldəetmənin vasitəsi idisə, Fərabiyə görə, o, həm “sənət aləti” (istedad), həm də bir elm anlayışı idi: “məntiq – nitqə yaxın olub, düşünmənin (zəkanın sərbəst fəaliyyəti) kainat qanunlarını, nitq isə dilin mənsub olduğu lüğətin qaydalarını müəyyən edir” (Əl-Farabi, 1962, s. 83).

Fərabi “məntiq sənəti”nin altı – “burhani”, “cədəli”, “muğalita – sofestai”, ”hitabi” və “şeiri” üslubla ifadə edildiyini açıqlamışdır:

- “Muğalita” (Ğalat – yanıltan) – doğruya bənzər xətalı, yanlış sözlər.
- “Burhani” (şəffaflıq, həqiqət, dəlil) – haq ilə batili ayıran sözlər.
- “Cədəli” (hilaf ül-cədəl – zidd, əleyhdar) – müxalifətə və cəbhəyə səbəb sözlər.
- “Sofestai” (şübhə, inkar) – hər şeyi inkar edən, hökmə varmayan sözlər.
- “Hitabi” (bəlağət) – gözəl sözsöyləmə sənəti.
- “Nazm” (şeiriyyət) – hər hansı bir varlığın daha üstün, yaxud daha alçaq, daha gözəl və daha çirkin təsvirini mənalandıran ahəngdar ifadədir (Əl-Farabi, 1962, s. 102).

Əl-Fərabi elm, ehtimal və təsəvvürlərin fərqli olmasından və gözəl söylənən sözün güclü təsirindən söz açır: "İnsanların bir çoxu bilik və dəlilləri deyil, təsəvvürləri təqib edər: birini hər hansı bir işə sövq etmək istəyən bəlağətli nəzm söyləyər, qarşı tərəf istəməsə belə, bu qafiyələrin təsiri ilə icraya tərəf yönələr. Bu səbəbdən bəziləri istisna, bu ahəngdar ifadələr süslənir, bəzənir, kəlmələr qüvvətlənir və "Məntiq elmi"nə parlaqlıq, gözəllik bəxş edilir" (Əl-Farabi, 1962, s. 114).

Böyük ustadın tədqiqatlarında "maarifa" anlayışı – "varolma" əsasının bədii şəkli – "təsəvvür" (taxayyul) kimi şərh edilir. Onun sırf musiqi mövzusuyla işıqlanan risalələrində bu termin musiqi nəzəriyyəsinə "əsasın qavranılması" – "musiqinin dərk edilməsi", "musiqi ahənglərinin qavranması" kimi daxil olunmuşdur.

Müəllifin şərhlərində öz mənasıyla "maarifa" anlayışından fərqli səslənən "ilm" (dəlil) – "təməl biliklər" olub, iki məna birliyiylə şəkillənən idrak yenə "elm" anlamı daşımaqdadır. "Ilm" öz mənasıyla "fi'l" (fəaliyyət) və "a'mal" (təcrü-bə) anlayışına zidd olsa da, "a'lim" (bilici) ifadəsi bir şəkildə, "fi'l" anlayışını tamamlaşa bilmişdir (Əl-Farabi, 1967, s. 77).

Idrak – qavrayış əl-Fərabi təfsirlərində bu və ya digər incəsənət əsaslarına daxil olan sərbəst düşüncə meyarı kimi tədqiq edilmişdir.

Elmi terminlərin çoxsahəliliyinə diqqət çəkən ustad bu anlayışı "nəzəri sənətin bilik sahəsi" və "dəlillərin məqsədi" kimi qəbul etmiş, bilik təməlinin varlıq səbəblərini açıqlamışdır.

Əl-FərAbiyə görə, musiqi elmində "varolma səbəbi" mövzunun – səslərin, melodiyaların tədqiqatlarıdır. Onun əsərlərində "mövzu" məfhumunun xüsusiyyətləri digər – riyaziyyat, məntiqlə, ədəbiyyat elmlərində olduğu kimi, ona məxsus ölçüdə, öz tərkib mənalarıyla şərh olunmuşdur. Ustadın fikrincə, "məqsəd" və "fəaliyyət"in musiqiyə tətbiq edilməsi yalnız onlara uyğun nəzəriyyə ilə gerçəkləşə bilər.

Nəzəri müdduəaları musiqi sahəsinə daşıyan əl-Fərabi təcrübələrlə qavranılan musiqi sənətinin nəzəriyyə ardıcıllığını bu düşüncələriylə əsaslandırır: "Əgər məzmun təhlilində təcrübə hədəfi varlıq əsası kimi təslim alınıb, qavrama kimi qəbul olunursa, bunlar varlığın deyil, idrakın əsaslarıdır, onları istiqamətlərdirən idrak deyil, varolma səbəbləridir" (Əl-Farabi, 1967, s. 38).

Ustadın digər elmlər birliyinə daxil olmşu "musiqi" tədqiqatları "varolma" qanunlarına şərtlənmiş, musiqi də riyaziyyatın bir bölümü kimi "elmlər təlimi"nə daxil edilmişdir. Onun tədqiqatlarında "elmlər təlimi" – elm və varlığın bütün sahələrini əhatə edən nəzəri fəlsəfədir.

Fərabi'nin sistemli izahlarında tez-tez işlənən "ilm" və "maarifa" ilə yanaşı, "sina" – "incəsənət" anlayışı da başlıca əhəmiyyət kəsb edir. Onun şərhlərində incəsənət – istedad və hazırlıq nəticəsi kimi, insana bəxş edilən imkan – "təfəkkür nitqi" kimi dəyərləndirilir. Ustad məntiq anlayışına – "nitq (nutk) dedikdə, mən insana xas olan təfəkkürü nəzərdə tuturam" deyə, aydınlıq gətirmişdir (Əl-Farabi, 1967, s. 51).

"Kitab əl-musiqa əl-kəbir" risaləsində incəsənət sözü mənalara bölünmüş – "hayaa" (mövcud şəkil), "ma'laka" (məvzuya anlama) və "nutk" (düşüncə izharı) istilahları müəllifin izahlı təhlilləriylə açıqlanmışdır.

Əl-Fərabi'nin ("Elmlərin təsniəfi", "Idrak fəhminin təhlili", "Möhtərəm şəhər əhlinin düşüncələri") risalələrində çox mənaya (söz, düşünmə, ağıl, ölçü) sahib olan ərəb sözünün bənzəri – yunan "logos" (nitq) istilahına tez-tez təsadüf olunur. Antik dövr filosoflarından sonra bu terminərın mənalarını açıqlayan ustad, onun qəbul olunmuş üc: düşüncə ilə qazandılın zəka, ruh qavramı ilə yaranmış məntiqi istedad və zahiri məntiq (qabiliyyət) anlamlarını daha müfəssəl şərhlərlə təqdim etmişdir (Əl-Fərabi, 1986, s. 72).

Böyük alim bütün idrak növlərini, qabiliyyətlə – bilik və bacarıq birliyi ilə gerçəkləşən fəaliyyəti "ilk mükəmməllik" (əl-kamal əl-'avval) kimi anlatmışdır: "Səxavətdən (burada – istedaddan) doğan ilk mükəmməllik – kamillik nailiyyətinə – ali səadətə, mütləq gözəlliyə doğru istiqamətlənir" (Əl-Farabi, 1967, s. 86).

Musiqi sisteminin qaydalarını iki sahə ilə müəyyənləşdirən əl-Fərabi onları əməli fəaliyyət (hayaa əməliyya – fa'ila ) və nəzəri bilik (hayaa nazariyya – a'lima) anlayışları ilə səciyyələndirmişdir. Əməli fəaliyyət özlüyündə daha iki – ifa ('ada) və bəstə (siqa) qisminə bölünmüşdür. "Ifa – musiqinin dinləyici zövqünə uyğun duyğu və hisslərin icrası, bəstə – musiqi ahənginin yaranma şəkildir" (Əl-Farabi, 1967, s. 54).

Musiqinin “səbəbləri” – bəstə (siqa əl-əlha‘n) və ifa (‘ada əl-əlha‘n) ustadın poetik düşüncəsilə: “təfəkkürdə gerşəkləşən “təsəvvür” – “musiqi” – ruhun qidalandığı ahəngdarlıqdan yaranan dərin bir zəkadir (Əl-Farabi, 1967, s. 55).

Fərabiyə görə, tədqiqatlarda musiqi anlayışlarının bir-birindən fərqlənməsi onun istifadə etdiyi istilahların geniş, əhatəli, mənalı olması ilə bağlıdır. Bu meyarları üzə çıxarıb onları özünəməxsus düşüncələri ilə təhlil edən alim, eyni zamanda nəzəri biliyin elmi üsullarını da əks etdirə bilmişdi.

Əl-Fərabi istənilən mövzunun təhlili ilə dərk etmənin keyfiyyətlərini incələyir, onları növlərinə görə dərəcələrə bölür, mövcud xassələri ilə, bir üslubu digərindən üstün keyfiyyətləri ilə izah edirdi (Əl-Fərabi, 1986, s. 76).

Onun təfsirlərində "musiqi ahəngləri" – təbii (insan qırtlağı) və süni səslərin icrası ilə hasil olan bəyanlar – "Əməli musiqi elmi" adlanmışdır. Ustada görə, "musiqi – nizamlı ahənglərin, düşüncə və hisslərin birləşib, icra ilə mükəmməlləşdiyi incə sənətdir". "Ahəngdarlıqla hasil olmuş bu sənət öz tərkibini iki qisimlə anladar: birincisi – dinləyənin duyğularını oxşayan mükəmməl musiqi təzahürü, ikincisi – duyğuların icra etmədiyi, sadəcə, qəlibdən çıxmış avazların icrasıdır..." (Əl-Farabi, 1967, s. 55).

Bir başqa şərhində musiqi anlayışının əsas səbəb və göstəricisi olan "eşitmə" amili, ərsəyə gələn təsirli və duyğusuz musiqilər arasında yaşanan fərq, onların təsir gücü kimi səciyyələnir: "qulaq – bir-birinə uyan, yaxud uymayan bəm, zil səslərdən yaranmış musiqi ahəngini eşidir, seçir, şüura və ruha ötürür" (Əl-Farabi, 1967, s. 59).

Qədim yunan alimlərinin izilə gedib, bəzən onlardan fərqlənən Əl-Fərabi musiqinin təbii əsasları olan ifalar haqqında ətraflı bilgilər vermiş, bu alimlərdən intiqal etmiş bilikləri şərhləri ilə tamamlamış, hətta bəzi yanlışlıqları düzəltmişdir. Ustadın istər öz dövrünün, istərsə də özündən sonrakı çağlarla bağlı müfəssəl bilgilər verməsi musiqi tarixində müstəsna yer qazanmaqdadır.

Antik ənənələri davam etdirən ustadın elmlər təsnifatında "musiqi"ni riyaziyyat elmlərinə aid etdiyini daha öncə qeyd etmişdik. Onun dəqiq elmlər sahəsi latın dilində "trivium" (üçüzlü), "quadrivium" (dördüzlü) bölgüsü ilə sinifləndirilmişdir: "nahiv", "məntiq", "bəyan" – triviuma, "riyaziyyat", "həndəsə", "kainat bilikləri", "musiqi" və "fayaziya (fizika)" quadriviuma daxil edilmişdir. Əl-Fərabinin fən sıralamasında riyaziyyat fənninə xas olan ardıcıllıq digər elmlərin özəllikləri ilə tamamlanır. Bunlar – "hisslərdən təcrid olmuş dəqiq elmlər", həmçinin "təbii meyarla yaranan incəsənət və riyazi amillərin qəbul etdiyi – məqsəd, üslub, mövqe, intizam və ölçü münasibətləridir" (Əl-Farabi, 1967, s. 62).

Dövrün musiqi tədqiqatlarında riyaziyyat bölümünə daxil olmuş musiqi elmi də digər fənlər kimi həm hesablama təhlilləri, həm də bu incəsənətin özünəməxsus əlamətləri ilə səciyyələnməli idi. Musiqi anlayışını genişləndirən musiqişünas alimlər öz risalələrinin təsnifatına daxil etdikləri musiqi elementlərini səs və ritm vahidləri ilə müəyyənləşdirirdilər.

Daha öncə Şərqdə şifahi ənənələrlə mövcud olan musiqi anlayışlarını elmi-nəzəri qaynaqlara istiqamətləndirən Əl-Fərabi "Böyük musiqi kitabı" risaləsinin girişi ilə rasional bir nəzəriyyə irəli sürmüşdür. İnsanı bir musiqi aləti olaraq qəbul edən ustad bu aləti boğaz, kiçik dil və burun olaraq üç bölümə ayırmışdır. Ustadın məntiqi ilə əməli musiqi – xəncər, dil, burun, ney, habelə – ud, qanun kimi emal edilmiş alətlərdən hasil olan ahəngli səs, nəzəri musiqi isə müqəddəmə, üsul, nəğmə, bəstəçilik və sənət yaradıcılığı ilə hasil olan fəaliyyət üsuludur (Filiz, 2015, II s. 42).

Bu risalənin bir başqa bölümündə "tətbiqi musiqi" mövzusu iki – təcrübə və nəzəriyyə meyarları ilə təhlil edilmişdir. İkincinin məramı Əl-Fərabinin elmi bilik əsasları ilə məna qazanan nəzəri təfsirləridir.

Musiqi elminin təməl və qaydalarını araşdıran müəllif bunları mövcud elmlərin öz anlayışları ilə – "at-talim" (təhsil), yaxud "ət-talim ən-nazariyya" (nəzəri təhsil) ilə açıqlayır. Fərabinin ifadələri ilə elmə daxil olan bu mənalar müasir tədqiqatlarda hələ də qorunmaqdadır. Şübhəsiz, ustadın "Kitəb əl-musiqa əl-kəbir" risaləsində istifadə etdiyi çoxmənalı, zəngin istilahlar zamanla daha geniş təhlillərə vəsilə olmuşdur.

Belə ki, musiqi – təhlil və şərhlərdə cəbr, həndəsə, kainat bilikləri, fizika, hətta tibb elmləri ilə müqayisə edilir və biliklərarası elmi fərziyyələr meydana çıxır. Belə qənaətə gəlmək olur ki, musiqi elminə daxil olan bu anlayışlar ilk bilik mərhələsi sayılan "antik dövrün sinifləndirmə və tədqiqetmə

təcrübəsi" ilə – "trivia" (qrammatika – natiqlik, təbiət, cəmiyyət və təfəkkürün inkişaf qanunauyğunluqları), bəzən isə "kvadriviya"da yer alan məntiq bölümləri ilə şəkil qazanmışdır (Əl-Fərabi, 1986, s. 81).

Əl-Fərabi təfsirlərinin məntiqini müəyyənləşdirən elmi düşüncələr onun "səbəb" (asbab) anlayışı ilə məna qazanır. Ustada görə, elmin hədəfi – mövzuların mövcud olması, səbəbin təhlili: eşitmə, duyulan səsin sürəti, insanı öz təsiri altına alan "təbii, qeyri-təbii" səslər, müşahidə, təcrübə və nəzəri qanunlardır.

"Bilik – üç təməl təzahürü şəkilləndirir", – deyən əl-Fərabi bunları "Böyük musiqi kitabı"nda belə sıralayır: "təməl məzmun, həqiqi düşüncə və əsaslı dəlil." Bunların hər biri üç qaynağa – duyğu, düşüncə və qavrama özəlliyinə sahibdir. Duyğu (şüur) – cismin təməlini qoyur, qavrama – duyğu və təfəkkür birləşməsi ilə emal olunur, bilik – (düşüncə) bu ikisi birləşən anda doğur (Əl-Farabi, 1967, s. 79).

Musiqi bilgilərinə də digər dəqiq elmlər intizamını nümayiş etdirən ustad "elmlər təlimi"ni – bilik, təməl, məlumat və məntiqin yer aldığı "nəzəri incəsənət" (sina'a nazariyya) kimi səciyyələndirmişdir. "Böyük musiqi kitabı"nın müqəddiməsində kamillik meyarları, incəsənət sahəsində əldə ediləcək nailiyyət və mükəmməllik keyfiyyətləri belə açıqlanır: "Nəzəri sənətdə kamala çatmaq istəyən şəxs üç önəmə diqqət etməli: tədqiqatın qaydalarını bilməli, mövzuya aid mövcud vasitələrdən faydalanıb, doğru nəticəyə varmalı, mövzu ətrafında digər fikir sahiblərinin düşüncələrini dəyərləndirməli, elmə nüfuz etmiş yanlışlıqları düzəltməlidir. "Mükəmməlliyin" son vacib şərtlərindən biri – iddiaçının önə sürdüyü bəyanlarla "həqiqət" naminə dürüst mübahisə etmə sənətinə sahib olmasıdır" (Əl-Farabi, 1967, s. 27).

Yenə ustadın həyat və yaradıcılıq səhifələrini işıqlandıran İbn Xəllikanın hekayələrində dövrün əmiri-xəlifəsi Razibiləllah sultanın vəziri Mühəmməd ibn Qasım Karhinin sualını cavablandıran əl-Fərabi: "Məndən xalqın anlayacağı bir dildə kitab yazmamı istədiniz. Öncəkləri, yaxud zamanımda yazılanları incələmə səbəbilə, yazacaqlarımı anlamam üçün istəyinizi bir az gecikdirdim. Bu mövzuda dəqiq və kamil kitab yazılmışsa, yenisini yazmaq faydasızdır. Bu sənətlə bağlı öncəki qələm sahiblərinin gərəkli şəkildə açıq olmadığını fərq etdim. Bu – onların məharət sahibi olmadıqları anlamına gəlməz, bəlkə bunun qaynağı yazılan əsərlərin bir çoxunun yox olması, yaxud əcnəbi dildə yazılmasıdır. Sizin istəyinizi bu səbəbdən qəbul etdim", – deyən ustad elmi əsəri təşkil edən şərtlərdən söz açmışdır (Bədəvi, 1983, s. 165).

Əl-Fərabini özündən öncəki filosoflarından fərqləndirən əsas özəllik onun musiqi sistemi sahəsində əldə etdiyi nailiyyət və ixtiraları ilə yanaşı, ud, qanun və ney alətlərinin mahir ifaçısı olması idi. Ustadın bəstələri xalq sevgisini qazanmaqla bərabər, dövrün mühafizəkar əhli tərəfindən də maraqla qarşılanır, nəğmələri sürətlə yayılırdı. Əslində, bu maraq səbəbsiz deyildi, çünki əl-Fərabi fəlsəfə, məntiq və digər elmlərə sahib olsa belə, öz daxili ilə qismən təsəvvüf (ərəbcə sufuyya – İslamın mütləq həqiqətlərini tərif və etiraf edən) idi. İnsan toplumundan narahat olan ustad çox zaman yazılarını təbiət qoynunda, əyalət izdihamından uzaqlarda qələmə alardı (İbn Xəllikan, 1978, s. 58).

Musiqi sənətinin inkişaf yolunu əks etdirən, gerçək adı "Kitəb sənət əl-ilmi əl-musiqa" olub, "Musiqa əl-kəbir" adıyla şöhrət qazanan bu risalə əl-Fərabi məntiqinin mükəmməlliyini – səs, təbiət, varlıq, şeir vəznləri, səs ahəngdarlığı, çalğı alətləri, bir sözlə, musiqi ilə bağlı bütün mövzuları işıqlandırmış, Yaxın və Orta Şərq mədəniyyətinə parlaq bir elm bəxş edilmişdir. Zəngin bilgilər məcmusu olan bu risalədə səs anlayışı təbiət, düşüncə və duyğu meyarları ilə təhlil edilmiş, ud, tanbur, rebab, mizmar (ney), qanun alətlərinin xarakterik özəllikləri, onların fərqli tembr və ifa imkanları məna qazanmışdır. Əl-Fərabinin bu kitabında özünəməxsus musiqi istilahları ilə yanaşı, elmi-nəzəri və fəlsəfi düşüncələri də böyük marağa səbəb olmuşdur. Dolğun və ətraflı bilgilərlə zəngin bu risalədə mövzular iki bölümlə sıralanmışdır. Birinci: "nəğmə ilə tanışlıq", "tam və əksik səs birləşməsi", "uyğun və qeyri-uyğun səs uzlaşması", "müşahidə", "ritm", "təməl ritmlər", "ritmin iti və narın zərbələri", "təkrarlanan ritmlər", "tamamlayıcı ritmlər", "milli ərəb ritmləri", "ahəngli musiqilər"; ikinci qism – "insan "xəncəri" (burun, qırtlaq) ilə yaranan musiqilər", "səslərin müstəsnalığı", "şeir misraları", "musiqi və mətn uyğunluğu", "fərqli səslənmələr", "bəstələr", "səs ahəngdarlığının başlanğıc və sonu" başlıqları ilə əks olunmuşdur.

Əl-Fərabiyə görə, musiqi yaranışı ilə həyata keçirilən "ifaçılıq" – icraçının əməli ifadəsinə

yönələn məslək və niyyətidir. Onun nəzəriyyəsində bu fəaliyyət, istehsal (hasil etmək) anlayışları ilə ölçülür. Belə ki, "əməli sənətdə biliklərin ifadəsi – musiqi tərkiblərinin qarşılıqlı uzlaşması, səslənmənin ifaçı tərəfindən dəyərləndirilməsi və bu keyfiyyətlərin ifaya ötürülməsidir" (Süleyman Uludağ & Bayram Akdoğan, 2014, s. 57).

Orta əsrlərdə nəzəri incəsənətə bəstəkarlar da müraciət edirdilər. Dövrün bəzi istedadlı musiqiçiləri sənətdə baş qaldıran fəlsəfi düşüncələri təqib edir, musiqidə mövcud olan ilk mənbənin mahiyyətini araşdırmağa çalışırdılar. Əl-Fərabi öz dövrünün tanınmış müğənnisi İshaq əl-Mousilinin də bu özəlliyini dəyərləndirmişdir: "İshaqın səviyyəsinə yüksələn hər kəs ehtimal ki, nəğmələrə nüfuz edən az, yaxud cüzi səbəblərin bu biliklə əlaqəsi olmadığını yenə "mövcudluq" anlayışı ilə dərk edə bilər" (Süleyman Uludağ & Bayram Akdoğan, 2014, s. 59).

Əl-Fərabinin geniş mənalarla qələmə aldığı bütün musiqi risalələrində olduğu kimi, "İhsa əl-ilim" risaləsinin musiqi bölümündə də musiqi təliminin fərqli müddəaları önə çəkilir:

1. Dəqiq elmlərlə sinifləndirilən musiqi sənəti tədqiqatlarında nəzəri-məntiqi mükəmməllik, "elmlər təlimi" ilə açıqlanan sənətin təməl mövzuları.
2. Nəğmələrin (ləhn) yaranması, səs makamları, fərqlilikləri və səs nisbətləri.
3. Musiqi ahəngləri ilə sözlərin uzlaşması, alət çeşidləri.
4. Ritm növləri, nəğmə ölçüsü ilə yaranan zərbələr.
5. Nəğmələrin bəstə üslubları; sadə nəğmələr; şeir bəndləri ilə uzlaşan musiqi ahəngləri (Macid Faxri, 1987, s. 46).

Əl-Fərabiyə görə, bu icranı yerinə yetirən hər kəs buna məsul olduğu qədər, həm də bu vəzifəni həssaslıqla başa çatdırmalıdır. Ustadın bu sahədə irəli sürdüyü nəzəri əqidə və gəldiyi qənaət müfəssəl bilik məlumatları olmaqla yanaşı, həm də yerində səslənən elmi-nəzəri ixtiralardır. Musiqi tədqiqatlarına daxil olan fəlsəfi mülahizələr sistemli bilik üslubuna əsaslanan çoxmənalı düşüncələrin təzahürüdür.

"Duyğu" (əl-hiss) və "əmin təfəkkür" (tayakku əl`akl) anlayışları Fərabi müqayisəsi ilə belə səciyyələnir: "Dərk edilən duyğu vasitələri maddəni (gerçək varlığı) dəyərləndirə bilməz, təfəkkürə məxsus olan fəaliyyətlər əminlik mərhələləri ilə gerçəkləşir. Maddəni şəkilləndirən meyarlar qavrama şərtlərinə çevrilir: təfəkkür maddə varlığını öz təsbitləri ilə təsdiqləsə belə, duyğu zaman-zaman, fərqli şəkillərlə təkrarlanır" (Əl-Farabi, 1962, s. 94).

Dürüst mövqeyini xəyalı və dini görüşləri ilə birləşdirən Əl-Fərabi insanı digər varlıqlardan fərqləndirən, onun cəsarətini üzə çıxarıb, təfəkkür anlayışını yenə bu varlığın ruhu ilə uzlaşdırır, "onu" (ruhu) özünəməxsus keyfiyyətlərlə səciyyələndirirdi: "Göyüzü və bütün kainat fərqli ruha sahibdir", yaxud "ulduzların hər biri öz ruhunu daşıyır" və ya "ruh – cisimdən ayrılsa da, varlığını davam etdirən lətif bir qanundur, o, bütün canlıların (insan, heyvan və bitki) daxilindədir". Böyük filosof insana xas mənəvi güc və təfəkkür keyfiyyətlərini bir də belə açıqlamışdır: "Varlıqların vəzifə gücünə – yemək, böyümək və çoxalma; qavrama gücünə xarici təsirlər – duyğu, xəyal, hafizə, təfəkkür, ehtiras, nifrət və vücudu hərəkətə gətirən qüvvət daxil edilir. Bunların hər biri cismin bəlli bir üzvünün yardımı ilə hərəkət edir, əksi mümkün deyil, bu güclərdən heç biri varlıqdan ayrı zühur etmir" (Süleyman Uludağ & Bayram Akdoğan, 2014, s. 74).

Əl-Fərabinin fəlsəfi tədqiqatlarında "ölümdən sonra ruh və əbədiyyət" mövzusu da təhlil edilmişdir. Orta əsrlərdə bu anlayış ətrafında zaman-zaman bir-birini təkzib edən mülahizələr yürüdülürdü. Qeyd etmək lazımdır ki, Əl-Fərabiyə görə, ruh, vücudun önündə zahir olmaz, onunla eyni anda gəlib, eyni anda yox olar.

Bütün bilik əsaslarını və təcrübə üsullarını ümumiləşdirməyə çalışan ustadın təfsirlərində müxtəlif bilik uzlaşmaları ilə tədqiq edilən müxtəlif elm sahələrinin təsir və fəaliyyətləri ilə qarşılaşmaq olur.

Öz dərin fəlsəfi şərhləri ilə dövrün qanun və ənənələrinə sadiq qalan alimlər incəsənətin yeni qaynaqlarını yaratmaqda idilər. Bu sənətin əsas mahiyyətini, həqiqi keyfiyyətlərini üzə çıxaran Əl-Fərabi "gerçək" bilik təsnifatını – "məlum biliklər", "digər elmlər birliyi ilə təsbit edilən biliklər", "nizamlı, sınanılmış biliklər" dərəcələrinə bölüb, biliklərin mövcud xassələrini, onun başlıca amillərini izah etmişdi. Bu təsnifatda əsası "gerçək" biliklərlə yaranan aydın və ətraflı bilik dəlilləri, təcrübələrlə məna qazanmış düşüncələr yer alsa da, digər elmlərin təsiri ilə hasil olan elmlər

nəhayətdə bir başqa bilik sahəsinin əsası kimi səciyyələnmişdir.

**Musiqi sənətinə Əl-Fərabi məntiqi ilə daxil olan biliklərin vəhdəti** – "nəzəri əsaslar" (*əl-məbadī ən-nazariyyə*) və eşitmə, duyma təcrübələri ilə şəkillənən "əməli əsaslar" (*əl-məbadī əl-əməliyyə*) idi. Musiqi nəzəriyyəsində bu təcrübələrin birincisi ilə səs və musiqi tədqiqatları, ikincisi ilə onların "mükəmməl", "qeyri-mükəmməl", "ahəngli" və "ahəngsiz" keyfiyyətləri təhlil edilmişdir. Fərabinin fikrincə, musiqi tədqiqatları bu keyfiyyətlərlə uzlaşan əməli fəaliyyət və nəzəri təhlillərlə həyata keçirilməlidir:

"Əgər mövzu duyğu, yaxud əməli yolla dərk edilməmiş və məntiqi təhlilə tabe olmursa, tədqiqatçının 'müqayisə' və 'münasibət' xüsuslarına müraciət etməsi labüddür. Təməl, mücərrəd, təcrid olunmuş ruhi varlıq qanunlarının dərk edilməsi xüsuslarında sözügedən bu iki şərt müfəssəl şərhlərə qol-qanad vermişdir" (Əl-Farabi, 1967, s. 105).

Daha öncə söyləmişdik ki, orta əsrlərdə "musiqi elmi"nin nəzəri bünövrəsi məntiq, şeiriyyat, fizika (*fayaziya* – təbiət) və riyaziyyat elmləri əsasında yaranmışdır. Dövrün alimləri müəyyən musiqi mövzularının tədqiqatı üçün incəsənət və ilahi biliklərə müraciət edir, başqa sözlə, qələmə alınmış yazıları ilə öz fəlsəfi, yaxud dini baxışlarını əks etdirməyə çalışırdılar. Bu səbəbdən ilk addımlarını fəlsəfi biliklər zəminində gerçəkləşdirən "musiqi elmi" artıq gerçək biliklərlə, ətraflı təhlil, təcrübə və nəzəri şərhlərlə müəyyənləşən məntiqi bilik anlayışına çevrilmişdir.

Digər elm sahələrində olduğu kimi, Əl-Fərabi musiqi tədqiqatlarında da hər hansı bir mövzunun gerçək mahiyyətini açmaq, onun sahib olduğu "müəyyən-mücərrəd" meyarların izahı üçün yalnız "məntiq" – dəlil və dəyərlər elmindən, onun nəzəri mənbələrindən istifadə etmişdir.

Böyük alim hər zaman güvəndiyi "məntiq" anlayışı ilə gerçəyi yanlışdırdan qoparan özəllikləri kəşf etmişdi:

"Məntiq təfəkkürün təməlidir, o, inandığı varlığın arxasınca gedər və qorunar. Məntiq öz xəyalı və dürüst düşüncəsi ilə elmi və dini müşkülləri ayırıb özəlliyi kəşf edər. Tələffüz dilin sahib olduğu təfəkkürə təslimat göstərər" (Aydınlı, 2011, s. 71).

Əl-Fərabi tədqiqatlarında müxtəlif sahələri işıqlandıran biliklərin qarşılıqlı əlaqəsi çox zaman tədqiq olunan bir mövzunun digər mövzu daxilinə yerləşməsi və inkişaf etməsi ilə bağlı idi. Onun bu kimi təcrübələri sadəcə musiqi sahəsində deyil, eləcə də məntiq və dilçilik elmləri üzrə apardığı tədqiqatlarda da görünməkdə idi. Fəlsəfi məntiqin iki qolunu təmsil edən "tədqiqat" və "mülahizə" anlayışları ustadın araşdırma səbəbləri olub, şərhlərinin mükəmməlliyini təmin edən bədii düşüncələrlə "musiqi" varlığını tədqiq edib, onun elmi baxışlarını açıqlamışdı.

Öz nəzəri təhlillərində ümumidən xüsusiyə müddəası ilə yola çıxan Əbu Nəsr Əl-Fərabi hər bir mövzu tədqiqatını biliklərin nəticələri və sıralanmış mülahizələri ilə həyata keçirmişdir. Öz nəzəri sisteminə əsaslanan alim tədqiqatlarının mahiyyətini qısa olaraq belə açıqlayır:

"Bilikdə təhlil – 'son'dan 'başlanğıc'a qədər məlum olmayan əsaslarla fəaliyyət göstərir, tərkib isə 'məlum başlanğıc'la həyata keçirilir" (Kaya, 2014, s. 63).

## Nəticə

Elmi biliklərin əsasları ilə təkmilləşib, fəlsəfə və məntiq meyarları ilə tədqiq edilən musiqi nəzəriyyəsinin "başlanğıc" və "nəticə" anlayışları hələ ilk İslam alimlərinin "elmlər təlimi" ilə müəyyən edilsə də, nəzəri incəsənətin elmi axtarışları, təlim mülahizələri hələ də davam etməkdədir.

"Kamil təfsirlər üslubi-dövrəyə yerləşmədikcə, 'aşkardan' 'nəticəyə' uzanan düşüncələrin idarəsi ilə var olan bu və ya digər maddənin mahiyyəti hələ açılmaqdadır" – təbiri, Əl-Fərabinin yüksək hədəflərinin – təlim, təfəkkür, duyğu və məntiq birləşməsinin bariz ifadəsidir.

## Ədəbiyyat

1. Aydınlı, Y. (2011). *Farabi*. İstanbul: İslam Araştırmaları Merkezi.
2. Bədəvi, A. R. (1983). *Ər-risələ əl-musiqiyyə və əl-fəlsəfiyyə li Əl-Kindi və Əl-Farabi* [Əl-Kindi və Əl-Fərabinin musiqi və fəlsəfi traktatı]. Beyrut.
3. Daykeeva, S. D. (2002). *Filosofiya muzyki Abu Nasra Mukhammada al'-Farabi* [Əbu Nasr əl-Farabinin musiqi fəlsəfəsi]. Almatı.

4. Əl-Farabi. (1962). *Əl-ʿUṭrūḥāt əl-falsafiyya* [Fəlsəfə risalələri]. Qahirə: Dər əl-Kitəb əl-ʿArabī.
5. Əl-Farabi. (1967). *Kitəb əl-musiqa əl-kəbir* [Böyük musiqi kitabı] (Ğ. Abd əl-Məlik, Şərh.). Qahirə: Dər əl-Kitəb əl-ʿArabiyya li ət-Ṭibāʿa və ən-Nəşr.
6. El-Farabi. (2014). *İhsau'l Ulum* (A. Arslan, Trans.). Ankara: Divan Kitap.
7. Əl-Fərabi. (1986). *Kitəb əl-əlfaz əl-mustaʿmila fī əl-mantıq* [Məntiqdə istifadə edilən sözlər kitabı] (M. Mehdi, Təq. və mül.). Beyrut: Dər əl-Muşriq.
8. Fakhry, M. (1987). *Əl-ʿaiʾtibārāt əl-Fārābī* [Fərabi mülahizələri]. Beyrut.
9. Filiz, Ş. (2015). *Farabi*. İstanbul: İnsan Yayınları. (Kılavuz Kitaplar Dizisi)
10. İbn Xəllikan. (1978). *Kitəb vafəyət əl-ayaʾn və ənbəʾu əbnəʾi əz-zəmən* [Əyanların vəfatı və dövrün oğulları haqqında yazılar] (İ. Abbas, Ed.). Beyrut.
11. Kaya, M. (2014). *İslam filosoflarından felsefe metinleri*. İstanbul: Kitapyurdu Yayınları.
12. Levend, A. S. (2015). *Divan edebiyatı: Kelimeler, remizler, mezmunlar ve mefhumlar*. Ankara: Dergâh Yayınları.
13. Uludağ, S., & Akdoğan, B. (2014). *İslam ve musiki; İslam ve musiki sanatı: Makale, inceleme, araştırma* (Vol. I–1275 s.; II–1288 s.). Ankara: Yeni Türkiye Yayınları.

Daxil oldu: 11.03.2025
Qəbul edildi: 11.05.2025